# VƏTƏN SİZƏ OĞUL DEDİ



***Xüsusi təyinatlı MAXE***

Xüsusi təyinatlı MAXE əsgər (kəşfiyyatçı) - Rəhimov Elnur Məmmədkərim oğlu 25 iyul 2000-ci ildə Qəbələ rayon Mıxlıqovaq kəndində dünyaya gəlib.

Orta təhsilini 2006-2017-ci illərdə Fəzail Həmidov adına Mıxlıqovaq kənd tam orta məktəbində alıb. Tam orta təhsilini bitirdikdən sonra 2018-ci ilin 26 iyulunda hərbi xidmətə yollanıb. 2020-ci ilin yanvar ayında hərbi xidməti başa vurub.

Elnur hələ məktəb vaxtlarından vətənini, torpağını sevdiyi üçün hərbçi kimi işləməyə qərar verdiyindən yenidən hərbiyə qayıtmaq üçün müraciət edib. 2020-ci ilin yay aylarında xidmət kursunu müvəffəqiyyətlə başa vuraraq sentyabr ayında yenidən hərbi xidmətə qayıdaraq Beyləqanda Müdafiə Nazirliyinin Xüsusi Təyinatlılarında MAXE əsgər olaraq işləməyə başlayıb. Vətən müharibəsində Füzuli, Xocavənd, Ağdərə istiqamətində döyüşlərdə iştirak edən qəhrəman Şəhidimiz Elnur 1 dekabrda Mıxlıqovaq kənd məzarlığında dəfn olunub.

Şəhidimiz Rəhimov Elnur Məmmədkərim oğlu "Vətən Uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

***Xüsusi Təyinatlı Şəhid - Elton Qənbərli***



Elton Baba oğlu Qənbərli 1 fevral 1997-ci ildə Şərur rayonu Ələkli kəndində anadan olub. O, 2003-2011-ci illərdə Ələkli kənd tam orta məktəbdə 9-cu sinfi bitirib. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2014-2018-cü illərdə isə Azərbaycan Ali Hərbi Akademiyasında hərbi təhsil alıb.

"Sədaqətim şərəfimdir" deyən XTQ xidmətçiləri andlarını əməllərində də göstərdilər. Elton Suqovuşan, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı döyüşlərində iştirak edib. 23 gün böyük qəhrəmanlıqlar göstərərək döyüşüb.

Döyüşlər zamanı yaralansa da, o hospitala getməyib, deyib ki, mən hər şeyi burada görüb, yaşamaq istəyirəm. O, şiddətli döyüşlər zamanı yaralansa da, meydandan çıxmayıb və elə Qubadlının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub.

Oktyabrın 24-ü Şərur rayonu Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

Elton Qənbərli Cənab Prezident İlham Əliyevin 15 dekabr tarixli sərəncamına əsasən "Vətən Uğrunda" medalına, 18 dekabr tarixli sərəncamına əsasən isə "Döyüşdə fərqlənməyə görə" medalına, 25 dekabr tarixli sərəncamına əsasən isə "Cəbrayılın azad olunmasına görə" medalına layiq görülüb.

***"Ola bilsin elə səhəri günü məni də paylaşarsan, mən də şəhid oldum..."***



Vətən sağ olsun. Hər şey yaxşı olacaqdır..." Dediyi kimi şəhid oldu... Vətən müharibəsində şəhid olan cəsur kapitanımız

Qəhrəmanımız şəhadətindən 21 gün sonra, dekabr ayının 5-i Zəyəm qəsəbəsində torpağa tapşırıldı.

***Vətən müharibəsində Şəhid düşən Kapitan Heydərov***



Anar Bəhruz oğlunun nəşi 90 gün sonra tapılıb və ailəsinə təhvil verilib. Şəhidimiz Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında dəfn edilib.

Ailəli idi, ondan geriyə Vətənə və bizə əmanət 2 övladı qaldı...

***Vətən müharibəsində qəhrəmancasına şəhid olan evin tək oğlu***



Quliyev Rahim Yalçın oğlu.8 iyun 2001-ci ildə Cəlilabad rayonunun Həziabad kəndində dünyaya gəlmişdi, ailəsinin tək oğlu idi.

2019-cu ilin 11 iyul tarixində Rahim Quliyev hərbi xidmətə yollanıb,hərbi xidmətdə olarkən XTQ üçün seçim olanda o özü könüllü yazılıb. Əsgər yoldaşları Rahimin çox cəsur,mərd bir əsgər olduğunu deyirlər. Hər danışığında Şəhidliyin necə uca zirvə olduğunu deyirmiş qəhrəmanımız.

Şəhid olmamışdan 2 gün əvvəl atası ilə danışıb Rahim.

Şənbə günü, oktyabr ayının 2-sində ailəsinə Rahimin şəhadəti xəbəri verilib.19 yaşlı cəsur əsgərimiz Füzuli və Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu.

Şəhid Rahim Quliyev doğulub böyüdüyü Həziabad kəndində torpağa tapşırıldı.